

***
Mən hedonist oxucuyam; kitablarda zövq, ləzzət axtarıram.
***
Biz artıq tərəqqiyə inanmırıq – məgər bunun özü elə tərəqqi deyilmi?
***
Kimsə yazdığı kitabla qürurlanır, ancaq mən hər oxuduğumla.
***
Meymunlar qəsdən danışmırlar ki, onları işləməyə məcbur etməsinlər.
***
İki eyni cürə dağ tapammazsan, amma yer üzündə hər yanda düzənliklər eynidir.
***
Oxucum, Allah özü səni uzun-uzadı müqəddimələrdən qorusun.
***
Bir kitabın bizə xoşbəxtlik imkanı verdiyinə nədən inandığımı tam olaraq bilmirəm, amma bu alçaqkönüllü möcüzəyə görə, həqiqətən, minnətdarım.
***
Şübhə – zəkanın adlarından biridir.
***
Mənim yerim cəhənnəmdədirsə belə, səma var olsun.
***
Əgər bizə heç nə – yəni nə söz, nə arzu-istək, nə də xatirə təsir eləmirsə, deməli, ölüyük. Mən bilirəm ki, hələ sağam.
***
Həbsxanalar həmişə ədəbiyyata himayədarlıq eləyib; yada salaq Verleni və Servantesi.
***
Dünya elə bir labirintdir ki, ondan heç hara qaçmaq mümkün deyil.
***
İstənilən, hətta ən uzun və mürəkkəb həyat bircə andan ibarətdir; o an ki, insan həmişəlik kim olduğunu bilir.



## Karlos KASTANEDA

Atdığı hər addımı yer üzündə özünün son döyüşü kimi görən kəsin gücü qarşısında güc dayanmaz.
***
Bu gözəl dünyada, belə gözəl zamanda yaşadığınçün cavabdehlik daşıman gərək.
***
Düşün ki, heç vaxtın qalmayıb. Yalnız bu yolla addımına əsl güc qazandırarsan. Əks halda hər addımını qorxa-qorxa, qətiyyətsiz atacaqsan.
***
Gözlərimiz önündəki bu hərgünkü dünya olsa-olsa, çocuqkən bizə aşılananların nəticəsidir.
***
Mən “savaş” deyirəm, ona görə ki, insan bütün həyatı boyu çarpışır...
***
İstənilən təsadüf yalnız dərk olunmamış qanunauyğunluqdur.
***
Dünyaya sevginin gözüylə nəzər yetirdiyimiz zaman dünya da bizə özünün ən yaxşı tərəflərini aşkar edir.